Bakı Arbitraj Mərkəzinin Struktur Bölmələrinə dair Daxili Qaydaları Mərkəzin İdarə Heyətinin Ümumi Yığıncağının 25 oktyabr 2025-ci il tarixli, 001/2025 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

BAKU
ARBITRATION
CENTRE

“Bakı Arbitraj Mərkəzi”
Qeyri-kommersiya hüquqi şəxsin struktur bölmələrinə dair
Daxili Qaydalar

1-ci Fəsil.
Ümumi müddəalar

1. Bakı Arbitraj Mərkəzi haqqında ümumi müddəalar

Bakı Arbitraj Mərkəzi mübahisələrin alternativ həlli ilə bağlı fəaliyyət göstərən qeyri-kommersiya hüquqi şəxsidir. Bu qaydalar Bakı Arbitraj Mərkəzinin struktur və funksional prosedurlarını tənzimləmək məqsədi daşıyır. Bakı Arbitraj Mərkəzi Ümumi Yığıncaq, Sədr, İcra Orqanı, Arbitraj Komissiyası və Katiblikdən ibarətdir.

2. Qısaltmalar və anlayışlar

2.1. Təşkilat – “Bakı Arbitraj Mərkəzi” qeyri-kommersiya hüquqi şəxsi
2.2. Yığıncaq – Bakı Arbitraj Mərkəzinin Ümumi Yığıncağı
2.3. Sədr – Təşkilatın təkbaşına icra orqanı və qanuni təmsilçisi
2.4. Komissiya – Arbitraj Komissiyası
2.5. Katiblik – Bakı Arbitraj Mərkəzi Katibliyi
2.6. Qaydalar – Bakı Arbitraj Mərkəzinin qaydaları

2-ci Fəsil.
Ümumi Yığıncaq

3. Ümumi Yığıncağın anlayışı

Ümumi Yığıncaq Təşkilatın ildə bir dəfədən az olmayaraq çağırılan ali idarəetmə orqanıdır.

4. Ümumi Yığıncağın səlahiyyətləri

4.1. Təşkilatın təsisçilərinin Ümumi Yığıncağının müstəsna səlahiyyətinə qanunvericilikdə başqa şərtlər müəyyən edilməmişdirsə aşağıdakılar aiddir:

4.1.1. Təşkilatın nizamnaməsini qəbul etmək, ona əlavə və dəyişikliklər etmək;

4.1.2. Təşkilatın Qanununvericiliyin tələblərinə cavab verən qaydaları, Təşkilatın müstəqilliyi, fəaliyyətinin təşkili üçün müvafiq struktur bölmələrinin, o cümlədən həmin struktur bölmələrinin fəaliyyətini tənzimləyən daxili qaydaları və ona əlavələrin və (və ya) dəyişiklikləri təsdiq etmək;

4.1.3. Təşkilatın icra orqanlarını yaratmaq, onların rəhbərlərini təyin etmək (seçmək), səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

4.1.4. Təşkilatın illik hesabatlarını və mühasibat balanslarını təsdiq etmək, onun xərclərinin istiqamətini müəyyən etmək;

4.1.5. Təşkilatın fəaliyyətinin əsas istiqamətlərini müəyyən etmək, onların yerinə yetirilməsinə dair plan və hesabatları təsdiq etmək;

4.1.6. Təşkilatın saxlanılması xərclərinə uyğun olaraq təsisçilər və müqavilə ilə əməkdaşlıq edilən arbitrlər tərəfindən ödənilməli olan vəsaitin qayda, forma və ölçülərini müəyyən etmək, habelə işçilərin aylıq əmək haqqını və digər ödənişləri müəyyən etmək;

4.1.7. Zərərlərin ödənilmə qaydalarını müəyyən etmək;

4.1.8. Təsisçiliyə qəbul etmək;

4.1.9. Təşkilatın yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;

4.1.10. Ləğvetmə komissiyasını təyin etmək, ləğvetmə balansını təsdiq etmək.

5. Ümumi Yığıncağın təşkili

5.1. Təşkilatın təsisçilərinin ümumi yığıncağı növbəti və növbədənkənar ola bilər.

5.2. Nizamnamədə müəyyən edilib-edilməməsindən asılı olmayaraq, Ümumi Yığıncaq Təşkilatın fəaliyyəti ilə əlaqədar istənilən məsələni müzakirə edə bilər.

5.3. Təşkilatın illik fəaliyyətinin yekunlarına həsr olunmuş Ümumi Yığıncaq hesabat-maliyyə ili başa çatdıqdan sonra üç aydan gec olmayaraq çağırılır.

5.4. Növbədənkənar Ümumi Yığıncaq İcra Orqanını öz təşəbbüsü ilə habelə təsisçilərin azı üçdə birinin tələbi ilə çağırılır. Ləğvetmə prosesində olan Təşkilatın növbədənkənar Ümumi Yığıncağı ləğvetmə komissiyası tərəfindən çağırılır.
5.5. Təşkilatın təsisçilərinin yarıdan çoxunun iştirak etdiyi Ümumi Yığıncaq səlahiyyətli hesab edilir.
5.6. Təşkilatın yenidən təşkili və ləğv edilməsi, yeni təsisçilərin qəbulu haqqında qərarlar 2/3 səs çoxluğu, digər qərarlar isə Ümumi Yığıncaqda iştirak edən təsisçilərin sadə səs çoxluğu ilə qəbul edilir. Seçkilərin keçirilməsi qaydası, o cümlədən səsvermə qaydası Ümumi Yığıncaq tərəfindən müəyyən edilir.
5.7. Ümumi yığıncağın qərarları protokol tərtib etməklə rəsmiləşdirilir, iclasın sədri və katibi tərəfindən imza etməklə təsdiqlənir. Ümumi Yığıncağın qərarları təsisçilərin tanış olması üçün açıqdır.

3-cü Fəsil.
Arbitraj Komissiyası

6. Komissiyanın funksiyaları

6.1. Komissiya özü mübahisələr üzrə qərar qəbul etmir.
6.2. Komissiyanın funksiyaları aşağıdakılardır:
6.2.1. Bakı Arbitraj Mərkəzinin Qaydalarına uyğun olaraq yerli və beynəlxalq arbitraj təşkilini həyata keçirmək.
6.2.2. Məxfiliyi və müvafiq qaydada arxivləşdirilməni təmin etməklə, bütün icraatlar üzrə sənədləşməni aparmaq.
6.2.3. Qaydalara və prosessual ədalət prinsiplərinə uyğunluğu təmin etməklə, Arbitraj Məhkəməsi tərəfindən çıxarılmış arbitraj qərarını nəzərdən keçirmək və təsdiq etmək.
6.2.4. Bakı Arbitraj Mərkəzinin yurisdiksiyası barədə qərarlar vermək, arbitrləri təyin etmək, arbitrlərə etiraz barədə qərarları vermək, xərclər üzrə avansları müəyyən etmək, arbitrlərin mandatına xitam vermək, arbitraj xərclərini müəyyənləşdirmək və Qaydalara uyğun müvafiq hallarda icraatların birləşdirilməsi, əlavə tərəflərin prosesə cəlb edilməsi və icraatların əlaqələndirilməsi daxil olmaqla, digər prosessual məsələlərə dair qərarlar qəbul etmək.
6.2.5. Komissiya öz vəzifələrini icra etmək üçün bütün zəruri səlahiyyətlərə malikdir.

7. Komissiyanın strukturu

7.1. Arbitraj Komissiyasının üzvləri üç il müddətinə təyin edilirlər; fəaliyyətin qənaətbəxş olması və bu Qaydaların Əlavəsində müəyyən edilmiş uyğunluq meyarlarına cavab

verilməsi şərti ilə bu müddət yenilənə bilər. Komissiyanın tərkibinə həm Azərbaycan vətəndaşı, həm də Azərbaycan vətəndaşı olmayan şəxslər daxil edilə bilər.

7.2. Komissiya Təşkilatın İcra Orqanı tərəfindən təyin edilən təcrübəli arbitrlərdən ibarət olur. Arbitraj Komissiyasının üzvləri sərişte, dürüstlük və beynəlxalq arbitraj sahəsində təcrübə meyarlarına əsasən seçilirlər.

7.3. Komissiyanın üzvləri Təşkilatın Qaydalarına uyğun olaraq İcra Orqanı tərəfindən təyin edilir.

7.4. Komissiyanın üzvləri arbitraj prosesinin bütün aspektlərinə dair ciddi məxfiliyi qorumalı, öz vəzifələrini qərəzsiz və müstəqil şəkildə yerinə yetirməlidirlər.

8. Komissiyanın qərarvermə mexanizmi

Komissiyanın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Təcili hallarda, Komissiyanın Sədri mümkün olan ən qısa müddətdə Komissiyanın tam tərkibi tərəfindən təsdiq edilməsi şərti ilə müvəqqəti tədbirlər görə bilər.

4-cü Fəsil.
Katiblik

9. Struktur

9.1. Katiblik Bakı Arbitraj Mərkəzinin inzibati orqanı qismində çıxış edir və arbitrajların aparılmasında Arbitraj Komissiyasına və tribunallara yardım göstərir.

9.2. Katiblik Komissiyanın nəzarəti altında fəaliyyət göstərir, lakin işlərin idarə edilməsində operativ müstəqilliyə malikdir. Şəffaflığı və hesabatlılığı təmin etmək məqsədilə, Katibliyin bütün fəaliyyəti barədə Komissiyaya hesabat verilir.

10. Funksiya

10.1. Katiblik Təşkilatın Qaydalarda nəzərdə tutulan prosedur və prinsiplərinə uyğun olaraq vəzifələri yerinə yetirir, eləcə də Komissiyaya yardım göstərir. Katiblik Təşkilatın inzibati işlərinin icrasına görə məsuliyyət daşıyır.

10.2. Katibliyin funksiyalarına aşağıdakılar daxildir:

10.2.1. Arbitraj barədə müraciətlərin və onlara dair cavabları qəbul etmək və nəzərdən keçirmək;

10.2.2. Tərəflər, tribunal və Komissiya arasında kommunikasiyanı təmin etmək;

10.2.3. Arbitrlərin təyin edilməsinə və prosessual müddətlərə riayət olunmasına yardım göstərmək;

10.2.4. Qaydalara uyğun olaraq depozitlərin, avansların, rüsumların və xərclərin ödənilməsini idarə etmək;

10.2.5. Bütün arbitraj icraatları üzrə dəqiq sənədləşməni və arxivləşdirməni aparmaq;

10.2.6. Dinləmələr, işin idarə edilməsi üzrə konfranslar və digər prosessual tədbirlər üçün təşkilati-texniki dəstəyi göstərmək.

10.3. Katibliyin bütün üzvləri və əməkdaşları Bakı Arbitraj Mərkəzinin Qaydalarına uyğun olaraq, icraatlara və Katiblik tərəfindən işlənilən məlumatlara dair ciddi məxfiliyi qorumalıdırlar.

10.4. Katiblik, arbitraj icraatının prosessual bütövlüyünə və ya məxfiliyinə xələl gətirməmək şərti ilə, inzibati vəzifələri ixtisaslı əməkdaşlara və ya kənar xidmət təchizatçılarına həvalə edə bilər.

10.5. Katiblik Komissiyanın və ya tribunalın prosessual qərarlarını, göstərişlərini və sərəncamlarını icra edir, habelə onların vaxtında çatdırılmasını və yerinə yetirilməsini təmin edir.

10.6. Katiblik davam edən arbitraj icraatlarının statusu, baxılmaqda olan müraciətlər və Komissiyanın diqqətini tələb edən inzibati məsələlər barədə Komissiyaya mütəmadi olaraq hesabat verir.

10.7. Katiblik işin idarə edilməsi üzrə konfranslara, çoxtərəfli və ya çoxmüqaviləli arbitrajların əlaqələndirilməsinə, habelə Komissiya və ya tribunal tərəfindən müəyyən edilən prosessual səmərəlilik tədbirlərinə texniki və inzibati dəstək göstərir.

5-ci Fəsil
İcra Orqanı

11. İcra Orqanının anlayışı

11.1. Təşkilatın fəaliyyətinə cari rəhbərlik təkbaşına İcra Orqanı və qanuni təmsilçilik funksiyasına malik olan Sədr tərəfindən həyata keçirilir. Sədr Ümumi Yığıncaq tərəfindən üç il müddətinə seçilir. Lehinə daha çox səs verilmiş namizəd seçilmiş sayılır.

11.2. Sədr öz səlahiyyətlərini Qanunvericiliyə, Təşkilatın Nizamnaməsinə və bu Qaydalara uyğun olaraq həyata keçirir.

12. Sədrin səlahiyyətləri

12.1. Sədr aşağıdakı səlahiyyətləri həyata keçirir:

12.1.1. Təşkilatın cari fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

12.1.2. Təşkilatı üçüncü şəxslərlə münasibətlərdə etibarnaməsiz təmsil edir;

12.1.3. Təşkilat adından müqavilələr bağlayır, rəsmi sənədləri imzalayır;

12.1.4. Qanunvericiliyə və Qaydalara uyğun olaraq Arbitraj Komissiyasının arbitrlərin təyin edilməsi ilə bağlı fəaliyyətinə inzibati dəstək göstərir;

12.1.5. Təşkilatın işçilərini vəzifəyə təyin edir, başqa işə keçirir və vəzifədən azad edir;

12.1.6. Ümumi Yığıncağın qərarlarının icrasını təmin edir;

12.1.7. Təşkilatın maliyyə və inzibati fəaliyyətini təşkil edir;

12.1.8. Arbitraj sahəsində maarifləndirmə və digər təşkilati fəaliyyətin həyata keçirilməsini təmin edir;

12.1.9. Qanunvericiliklə, Təşkilatın Nizamnaməsi və bu Qaydalarla müəyyən edilmiş digər səlahiyyətləri həyata keçirir.

6-cı Fəsil
Yekun müddəalar

13. Daxili Qaydalara Dəyişikliklər

Komissiyanın və Katibliyin strukturuna və fəaliyyət prosedurlarına, İcra orqanın tövsiyələri əsasında Ümumi Yığıncaq tərəfindən dəyişikliklər edilə bilər.